**ƏMR EDİRƏM:**

1. 20 Yanvar faciəsinin iyirmi birinci ildönümünün keçirilməsi ilə əlaqədar Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər planına müvafiq olaraq bütün təhsil müəssisələrində 11-20 yanvar tarixlərində Azərbaycanın azadlığı uğrunda mübarizədə həlak olmuş şəhidlərin xatirəsinə həsr olunmuş geniş tədbirlər həyata keçirilsin.

3. Yerli idarəetmə orqanlarının rəhbərləri görülmüş işlər barədə 26 yanvar 2011-ci il tarixinədək nazirliyə hesabat təqdim etsinlər.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmri "Azərbaycan müəllimi" qəzetində dərc etdirsin.

5. Ümumi şöbə (H. Məmmədova) əmr və tədbirlər planının çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət nazir müavini E.Qasımova həvalə edilsin.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***29 dekabr 2010-cu il***